S.M.QAFAROVA
dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.063

KOMPÜTER TERMİNLƏRİNİN METAFORİKLƏŞMƏSİ

Xülasə. *Kompüter terminlərinin formalaşması prosesində metaforikləşmə müxtəlif səviyyələrdə baş verir. Termin yaradıcılığının hər hansı bir vasitəsinin məhsuldarlığı kompüter terminoloji sisteminin xüsusiyyətləri ilə müəyyən edilir. Çoxsaylı linqvistik faktlar göstərir ki, kompüter terminlərinin formalaşmasında mövcud oxşarlıqlara, o cümlədən xarici xüsusiyyətlərə və funksiyalara görə oxşarlıqlara əsaslanan model mühüm rol oynayır.*

Açar sözlər: *koqnitiv dilçilik, metafor, kompüter termini, söz yaradıcılığı, metaforik köçürülmə*

Terminlər xüsusi anlayışların işarə olunmasıdır. Terminlərin özünəməxsusluğu ondan ibarətdir ki, hər şeydən əvvəl onların məzmunu hansı vasitə ilə ifadə olunsa da, öz tamlıqlarını, bütövlüklərini itirmir. Terminlər bir sözdən yaxud çoxsözlü söz birləşmələrindən düzəlməyindən asılı olmayaraq, onlar həmişə bir anlayışa, məfhuma uyğun gələn bir işarədən ibarət olur. Hətta əgər termin mürəkkəb daxili semantik quruluşa malik olsa da, bütün hallarda o, vahid müstəqil bir ad ifadə edir. Adi sözlər kimi terminlər çox vaxt söz yaradıcılığı vasitəsilə mövcud sözlərin bazasında yaranır [6, s. 4].

Azərbaycan dilində termin yaradıcılığında müxtəlif vasitələr mövcuddur. Onlardan əsasları – morfoloji, semantik, sintaktik termin yaradıcılığı və xarici dillərdən alınmalar hesab olunur.

Termin yaradıclığının semantik vasitəsi dedikdə, semantik dəyişikliklərin geniş dairəsi, ilk növbədə məcazi mənanın müxtəlif növləri (metonomiya, metafor, funksional köçürmə), sözün semantik həcminin dəyişməsi (mənanın daralması və genişlənməsi, xüsusiləşməsi), semantik kalkalar və s. başa düşülür. Semantik sözyaradıcılığı ikinci adlandırmaya aiddir, yəni dildə artıq mövcud olan nominativ vasitələrdən ikinci advermə funksiyasında işlədilməsi nəzərdə tutulur [5, s. 2]. Terminlərin əmələ gəlməsinin semantik vasitəsi daha çox mənanın daralması və metaforik köçürülmələrə əsaslanır [7, s. 45]. Qeyd etmək lazımdır ki, terminlərin yaranmasının bu və ya digər vasitəsinın məhsuldarlığı kompüter terminoloji sisteminin özünəməxsusluğu ilə şərtlənir.

"Rus dilində kompüter terminlərinin əmələ gəlməsində semantik sözyaradıcılığının geniş yayılmış növü metaforik köçürülmələrdir. Metafor termin yaradıcılığının bir vasitəsi kimi əşyalar arasında oxşarlığa uyğun olaraq dil işarələrinə yeni məfhum və məna verir. Metaforikləşmə prosesi elmi anlayışı bildirmək üçün ümumişlək sözün seçilməsindən başlayır" [5, s. 4].

Koqnitiv dilçiliyin baniləri C.Lakoff, M.Conson güman edirdilər ki, "metaforun mahiyyəti bir növün mahiyyətinin (thing) digər növün mahiyyəti terminlərində dərk etmək və yaşamaqdır" [9, s. 5].

Qeyd etmək lazımır ki, oxşarlıq metaforun əsasını təşkil edir. Metaforun müəyyənləşdirilməsi üçün oxşarlığın ölçüsü anlayışı əhəmiyyət kəsb edir. Metafor o zaman yaranır ki, tutuşdurulan obyektlər arasında ümumi cəhətlərdən daha çox sayda fərqli cəhətlər mövcuddur.

Oxşarlıq zahiri və obyektiv yaxud daxili və subyektiv ola bilər. Özü də "metaforun oxşarlığı iki tipə bölünür: birinci tip − əşyaların təbiətində mövcud olan oxşarlıqların əsasında olan metafor (similarity-based metaphors); ikinci tip – adətən psixoloji assosiasiyaların baza-

sında yaranan insan tərəfindən yaradılan oxşarlıqlara əsaslanır (similarity-creating metaphors)" [8, s. 15]. İnsanın idrak prosesində ikinci tip daha mühüm hesab olunur.

Metafor kompüter texnikası və kompüter dilinin bütün səviyyələrindəki texnologiyaların obyekt və proseslərində, həmçinin elektron kommunikasiyanın müasir vasitələrinin tətbiqi və istifadəsi ilə bağlı olan bütün dil hadisələrinin adlarının yaradılmasında iştirak edir. Kompüter dilinin leksikasında metaforun bütün növlərinə, yəni bir əşyanın adının digərinə onların əlamətlərinin oxşarlığı əsasında köçürülməsini asanlıqla aşkar etmək olar.

Azərbaycan dilinin kompüter terminləri metaforik köçürülmənin köməyi ilə, hər şeydən əvvəl, əşyaların xarici oxşarlığı əsasında yaranır. Bu, fiziki əlamətlərin oxşarlığına əsaslanan sadə metaforadır: kompüter dilində bu, məsələn, siçan, pəncərə, iş masası, virus, yaddaş, poçt, menyu və s. Oxşarlığın ən sadə növü fiziki əlamətlərin oxşarlığıdır.

"Siçan is. Təsərrüfata ziyan vuran balaca, uzunsifət, uzunquyruq, adətən boz rəngli gəmirici" [2, s. 111].

"Mouse – мышь – fare – siçan – kompüterin ekranında göstəricini (pointer) idarə edən giriş qurğusu" [3, s. 9].

"Maus – мышь – mouse. Kompüterin manipulyatoru və koordinat qurğusu. Qrafiki interfeysdən istifadə edərkən klaviatura əlavə və avadanlığın vacib hissəsidir. "Maus" tipli manipulyatorun konstruksiyasındakı fərqlər bunlardır: korpusun forması, düymələrin miqdarı, yerinə yetirdiyi funksiyalar" [4, s. 252-253].

Siçan termini istifadəçinin kompüterlə interfeysini təmin edən daxil olma qurğularından biridir. Kompüter siçanı binalarda və çöldə yaşayan kiçik heyvan deyildir. Bu, kompüter qarşısında düz səthdə hərəkətdə olan kiçik qurğu olaraq kompüterin ekranında nişanı (kursoru) hərəkət etdirir. Məişət anlayışından kompüter termininə köçürülən metafor zahiri əlamətlərin – forma və ölçünün oxşarlığı əsasında həyata keçirilir: real siçanı da, kompüter siçanının da əldə tutmaq olar.

"Pəncərə is. İşıq və hava gəlmək üçün evin və s. divarında açılan deşik və həmin deşiyi qapayan şüşəli çərçivə" [1, s. 592].

Hamıya məlum olan "pəncərə" kompüter termini həm obrazlı, həm də dərin məzmun daşıyan bir məfhumdur, çünki o ekranın elə bir hissəsidir ki, orada proqram və proseslər yerinə yetirilə bilər. Eyni zamanda bir neçə pəncərə açıla bilər. Pəncərələri bağlamaq, sürüşdürmək, onların ölçülərini dəyişmək, yığışdırmaq yaxud bütün ekranda genişləndirmək olar. Bu təsvirdən aydın olur ki, pəncərənin zahirən bəsit obrazı kompüter dilində elmi konseptin əlamətlərini daşıyır. Kompüter terminologiyasında pəncərə sözü ilə bir sıra terminoloji söz birləşmələri yaranır, məsələn: fəal pəncərə, proqramın pəncərəsi, düzəlişin pəncərəsi/redaktənin pəncərəsi, dialoq pəncərəsi, siyahı pəncərəsi, mətn pəncərəsi, xəbərdarlıq məlumatlarının pəncərəsi və s. Gündəlik anlayışdan kompüterə metaforik köçürmə xarici xüsusiyyətlərin oxşarlığı əsasında həyata keçirilir.

"Window – окно – pəncərə – tətbiqi proqram, yaxud onun bir hissəsi ilə qarşılıqlı əlaqədə olmaq üçün monitorun ekranında müəyyən düzbucaqlı sahə. Pəncərələr qrafik istifadəçi interfeyslərində geniş tətbiq olunur. Pəncərələri təyinatından asılı olaraq üç növə ayırmaq olar: proqram pəncərəsi, sənəd pəncərəsi və dialoq boksu. Hər bir pəncərənin çərçivəsi olur və ən yuxarı hissədə başlıq zolağı yerləşir. Orada proqramın adı, eləcə də açıq faylın adı göstərilir. Başlıq zolağının bilavasitə altında, adətən, menyu zolağı yerləşir. Proqramın bütün komandalarını burada tapmaq olar. Pəncərələrin bir çoxunda menyu zolağının altında alətlər zolağı olur. Burada ən çox istifadə olunan komandaların düymələri toplanır. Alətlər zolağından aşağıda ola bilər. Sənəd pəncərəyə yerləşmirsə, onu bütövlükdə görmək üçün pəncərənin sağ və aşağı qıraqları boyunca fırlatma zolaqları nəzərdə tutulub.

Pəncərəni böyüdüb-kiçiltmək, yerini dəyişmək və qapatmaq olar. Onu tapşırıqlar zolağında müvəqqəti yerləşdirmək də mümkündür. Bu zaman yığılmış pəncərə tapşırıqlar zolağın-

da düymə ilə əvəzlənir. Bu düyməyə basmaqla pəncərəni yenidən bərpa etmək olar. Pəncərənin ölçülərini siçan vasitəsilə dəyişmək mümkündür" [3, s. 809].

"Masa is. Miz, stol" [1, s. 293].

İş masası metaforik termini kompüter erkranının bütün iş sahəsini bildirir. İstifadəçi masaya qoyduğu kimi ekrana proqramların işarələrini (yarlıkları) düzür və ona necə rahatdırsa, o cür də onları hərəkət etdirir. Biz onun xarici görünüşünü divar kağızlarından, iş stolunun mövzularından, güllər və s.-dən istifadə etməklə yaxşılaşdırmağa çalışırıq.

"Desktop – рабочий стол – iş masası – kompüterin ekranında: üzərindəki simgələr və menyu vasitəsilə adi iş masasının səthini modelləşdirən iş sahəsi. Adi (fiziki) iş masasında kağızlarla, yaxud başqa obyektlərlə necə hərəkət edilirsə, burada da siçanın köməyi ilə obyektlərlə bənzər hərəkətləri etmək olar.

Macintosh və OS/2 əməliyyat sistemlərində iş masası həm də simgələrin düzülüşü, istifadə olunan proqramlar haqqında və başqa bu kimi informasiyaları özündə saxlayan xüsusi fayldır. Kompüter söndürüldükdə bu informasiya diskdə saxlanılır və kompüter yenidən başladıldıqda bərpa olunur.

Windows əməliyyat sistemində iş masası hər bir istifadəçi üçün xüsusi kataloqdur. Adətən orada çoxlu sayda proqram fayllarının qısayol simgələri olur" [3, s. 213].

"Qutu is. İçinə şey qoymaq üçün taxtadan, kartondan, metaldan, plastmasdan və s.-dən düzəldilən qab" [1, s. 226].

Windows proqramında xaric olunmuş faylların saxlanma yeri qutu, zibil qutusu - tipli funksional oxşarlıq daha mürəkkəb xarakter daşıyır. Bu halda metafor bildirənin obrazlı ifadəsidir, yəni adlandırma əlamətinə emosionallıq, ifadəlilik əlavə olunur.

"Recycle Bin – Корзина – Çöp kutusu – Çöp qabı – Windows 95 əməliyyat sistemində və daha sonrakı versiyalarda uzaqlaşdırılmış faylların atıldığı yer. Gərək olduqda sonradan Restore (bərpa) komandasının köməyi ilə onları oradan çıxarıb götürmək olar" [3, s. 627].

"Virus is. (lat.) İnsan və bitkilərdə yolxucu xəstəlik törədən mikrob" [2, s. 487].

"Virus – вирус – virüs – kompüter fayllarına (adətən, icra fayllarına) girməklə onları "yoluxduran" proqram. "Yoluxmuş" fayl yaddaşa yüklənərkən onun içərisinə girmiş virus yerinə yetirilir və beləliklə, başqa fayllara da yoluxur. Viruslar çox zaman informasiyanı korlayır, yaxud onu tamamilə məhv edir" [3, s. 789].

Virus sözü metaforik köçürülmənin tipik nümunəsini nümayiş etdirir. Onun ilkin mənası qeyri-hüceyrəvi yolxucu agentdir ki, o yalnız canlı hüceyrələrin daxilində yarana bilər. Bu bioloji yaxud tibbi termindir. Virus kompüter termini kimi zərərverici proqram mənasındadır. Virus internetdən yaxud yoluxmuş diskdən kompüterə düşür və zərərli hərəkətlər yerinə yetirərək onun normal işləməsinə mane olur.

Həm bioloji (tibbi), həm də kompüter virusu ümumi xüsusiyyətlərə malikdir: yoluxma, çoxalma, nəzərə çarpmayan, qıcıqlandırma, dağıdıcılıq, epidemiya və s. Bu faktı kompüter terminologiyasındakı bir çox sözlər və söz birləşmələri də sübut edir, məsələn: virusun siqnaturası, virusun tipləri, virusun mutasiyası, virusdan qorunma tədbirləri, kompüter viruslarının məhvi, virusun mövcudluğunu üzə çıxarmaq üçün skan etmək, virus proqramı, antivirus / antivirus proqramı.

Adları yuxarıda çəkilən sahələrdə virusların analogiyası mücərrəd və mürəkkəb anlayış olan kompüter virusu terminini daha obrazlı edir, məsələn: kompüter virusların tapılması, yox edilməsi və ondan müdafiə üçün bir neçə növ xüsusi proqramlar hazırlanmışdır ki, onların köməyi ilə virusları tapmaq və məhv etmək olur.

"Yaddaş is. Bir şeyi zehnində saxlamaq və yenidən təsəvvürdə canlandırmaq qabiliyyəti, hafizə" [2, s. 498].

Yaddaş sözünün ilkin mənası əvvəlki təəssüratları, təcrübələri, eləcə də şüurda saxlanılan təəssüratların, təcrübələrin çoxunu şüurda saxlamaq və təkrarlamaq qabiliyyətidir.

Kompüter terminologiyasında yaddaş hesablama müəyyən vaxt əzində hesablamalarda istifadə edilən məlumatların saxlanması üçün hesablama maşının bir hissəsi, fiziki qurğudur. Məişət anlayışından kompüter anlayışına metaforik köçürülmə saxlanma və işlənmə funksiyalarının oxşarlığı əsasında həyata keçirilir.

"Memory – память – bellek – yaddaş – informasiyanı saxlamağa və bərpa etməyə imkan verən mikrosxem. Ən geniş anlamda yaddaş maqnit diskləri, yaxud maqnit lentləri kimi xarici sistemlərə aid olur; ancaq çox zaman yalnız bilavasitə prosessorla birləşdirilmiş, yarımkeçiricilər əsasında olan sürətli operativ yaddaş (RAM) nəzərdə tutulur" [3, s. 489].

"Menyu (fr.) Restoran, aşxana və kafedə yeməklərin adları olan siyahı" [1, s. 305]. Menyu sözünün ilkin mənası yeməklərin seçimi, həmçinin onların siyahısı olan vərəqdir.

"Menu – меню – menü – menyu – proqramın parametrlərinin, komandalarının və başqa elementlərinin elə strukturlaşdırılmış yığınıdır ki, istifadəçi lazım olan əməliyyatı yerinə yetirmək üçün onlardan birini seçə bilər" [3, s. 489].

Göstərilən obyekt konkret və maddi əşyadır. Qastronomiyada olduğu kimi, kompüter sahəsində də menyu nəyinsə siyahısını bildirir, lakin o virtual proqramdır. Çox vaxt bu termin saytlara tətbiq olunur və onun onun bölmələri və kompüter proqramlarının siyahısını bildirir. Burada menyu fəaliyyət və komandaların siyahısıdır ki, onların vasitəsilə həmin proqamı idarə etmək olar. Burada da metaforik köçürülmə əşyanın funksiyalarının oxşarlığı əsasında həyata keçirilir.

"Poçt. 1. Adresatlara pul, məktub və s. göndərməklə məşğul olan rabitə idarəsi və həmin idarənin yerləşdiyi bina. 2. Həmin idarə vasitəsilə alınan məktub, bağlama və s." [1, s. 612].

Elektron poçt paylanmış kompüter şəbəkəsi (o cümlədən İnternet vasitəsilə) üzərindən elektron mesajların (elektron poçtların) göndərilməsi və qəbulu üçün təqdim etdiyi texnologiya və xidmətlərdir. Mənbənin hədəfə uyğunlaşdırılması göndərmə və qəbul funksiyasının oxşarlığına əsasən həyata keçirilir.

"Mailbox – почтовый ящик – posta kutusu – poçt qutusu – şəbəkə istifadəçisinin elektron poçt məlumatlarını alması üçün diskdə nəzərdə tutulmuş yaddaş hissəsi" [3, s. 478].

Koqnitiv terminşünaslığın inkişafı ilə bağlı terminlərin adlandırılmasının koqnitiv mexanizmi terminoloji tədqiqatlarda əsas yer tutmağa başladı. Kompüter terminlərinin formalaşması vasitələri tədqiqatların aktual mövzusuna çevrildi. Məqalə metaforikləşmə hadisəsinə sistemli yanaşma əsasında koqnitiv terminşünaslıq çərçivəsində əsas kompüter terminlərinin semantik izahına həsr edilmişdir.

İşin elmi nəticəsi: Kompüter terminologiyasının əhəmiyyətli bir hissəsini ümumişlək sözlərin mənalarının metaforikləşməsi nəticəsində yaranan terminlər təşkil edir. Məqalədə metaforikləşmə hadisəsinə sistemli yanaşma əsasında koqnitiv terminşünaslıq çərçivəsində əsas kompüter terminlərinin semantik izahı verilir. Azərbaycan dilinin kompüter terminləri metaforik köçürülmənin köməyi ilə, hər şeydən əvvəl, əşyaların xarici oxşarlığı əsasında yaranır.

İşin elmi yeniliyi: Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq kompüter terminologiyasının semantik aspektləri hərtərəfli araşdırılaraq, terminlərin metaforikləşməsi prosesi izlənilir.

İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi: Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri kompüter texnologiyası üzrə sistemli ikidilli lüğətin hazırlanması üçün əsas təşkil edə bilər və gələcəkdə Azərbayan dilinin kompüter terminləri lüğətinin yaradılmasında da istifadə oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə]. − Bakı: Şərq-Qərb, − c.3, − 2006, − 672 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə]. – Bakı: Şərq-Qərb, − c.4, − 2006, − 712 s.
3. Calallı, İ. İnformatika terminlərinin izahlı lüğəti / İ.Calallı. −Bakı:Bakı nəşriyyatı, − 2017, − 996 s.

4. Rüstəmov, Ə.M. İnformatika:Azərbaycanca-rusca-ingiliscə izahlı terminlər lüğəti / Ə.M.Rüstəmov. − Bakı: Uniprint, − 2011, − 570 s.
5. Зарипова, А.Н. Экономическая терминология в немецком, русском и татарском языках: Дисс. … канд. филол. наук. − Казань: − 2004.
6. Фролова, О.Н. Словообразование в терминологической лексике современного китайского языка / О.Н.Фролова, − М., − 1981, − 132 с.
7. Цаголова, Р.С. Лексико-семантические особенности политэкономических терминов / Р.С.Цаголова, − М., − 2017.
8. Шу, Динфан. Исследования по метафоризации. − Шанхай, − 2000, − 267 с.
9. Lakoff, G. Metaphors We Live By / G.Lakoff, M.Johnson. −Chicago, − 1981, − p. 256.

S.M.Gafarova

Metaphorization of Computer Terms

Summary

In the process of forming computer terms, metaphorization occurs at different levels. The productivity of a particular method of term formation is determined by the features of a computer terminological system. Numerous linguistic facts show that a model based on existing similarities, including similarities in external features and functions, plays an important role in the formation of computer terms.

Key words: *cognitive linguistics, metaphor, computer term, word formation, metaphorical transfer*

С.М.Гафарова

Метафоризация компьютерных терминов

Резюме

В процессе образования компьютерных терминов метафоризация происходит на разных уровнях. Продуктивность конкретного способа терминообразования определяется особенностями компьютерной терминологической системы. Многочисленные лингвистические факты показывают, что важную роль в образовании компьютерных терминов играет модель, основанная на существующих сходствах, в том числе сходства внешних признаков и функций.

Ключевые слова: *когнитивная лингвистика, метафора, компьютерный термин, словообразование, метафорический перенос.*

Rəyçi: fil.f.d. A.Bədəlova

Redaksiyaya daxil olub: 29.03.2024